# Ulu Öndərə qardaşlıq və sülh mükafatı

**1999-cu il noyabrın 1-də Ankarada keçirilən Beynəlxalq Atatürk Sülh Mükafatının təqdim olunması mərasimi Azərbaycan-Türkiyə münasibətlərinin tarixində əlamətdar bir an idi. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev öz nitqində Atatürk irsini dərin ehtiramla yad edərək sülhün, qardaşlıq və müstəqilliyin dəyərlərini vurğuladı. Bu çıxış Azərbaycan-Türkiyə münasibətlərində yeni səhifənin açılmasına, ortaq irs və ideallara bağlılığın nümayişinə çevrildi. Mərasimdə səslənən sözlər həm ölkəmiz, həm də Türkiyə üçün xüsusi əhəmiyyət daşıyırdı, çünki bu mükafat həm Azərbaycan xalqına olan hörmətin, həm də Prezident Heydər Əliyevin şəxsi liderlik bacarıqlarının təsdiqi idi.**

Ulu Öndər bu möhtəşəm mükafatı qəbul edərkən vurğuladı ki, Atatürk Sülh Mükafatı ona verilən təkcə şəxsi təltif deyil, həm də Azərbaycan xalqına olan hörmətin ifadəsidir. O qeyd etdi ki, bu mükafat iki dost və qardaş xalqın bir-birinə olan dərin bağlılığının təzahürüdür. Dövlət başçısının sözlərinə görə, Atatürk kimi bir şəxsiyyətin adına layiq görülmək həm onun özü, həm də Azərbaycan xalqı üçün böyük şərəfdir. Bu çıxış yalnız diplomatik bir nitq olmaqla kifayətlənməyib, eyni zamanda dərin mənalarla dolu bir manifest kimi yadda qalmışdır. Ulu öndərin sülh, dostluq və qardaşlıq mesajları, iki xalqın ürəyindəki bağlılığı daha da möhkəmləndirdi. Bu nitq, həmçinin gələcək nəsillərə ilham verərək, ortaq dəyərlərin və mədəniyyətin qorunması yolunda atılan mühüm bir addım oldu. Prezident Heydər Əliyevin sözləri qardaşlığın əbədi və sarsılmaz təməlini qoyaraq, Azərbaycan və Türkiyə arasında dostluq bağlarının əhəmiyyətini bir daha ön plana çıxardı.

Ulu Öndər nitqində Mustafa Kamal Atatürkün şəxsi keyfiyyətləri və siyasi irsini dərin hörmətlə yad edərək bildirdi ki, Türkiyənin müasir dövlətə çevrilməsində Atatürkün rolu misilsizdir. Dövlət başçısı Atatürkün Türkiyənin inkişaf yolunda ilhamverici şəxsiyyət olduğunu vurğuladı və qeyd etdi ki, Mustafa Kamal Paşanın müasirlik, tərəqqi və milli birlik prinsipləri yalnız Türkiyədə deyil, bütün türk dünyasında yüksək dəyərə malikdir. Azərbaycanın bu dəyərləri bölüşməsi və öz dövlət quruculuğu yolunda Atatürk irsindən ilham alması hər iki ölkənin ortaq gələcəyinə olan ümidləri bir daha gücləndirdi.

Prezident çıxışında Azərbaycanın bölgədə sülhün bərqərar olması yolunda atdığı addımlara da diqqət çəkdi və Azərbaycanın müstəqillik əldə etdiyi gündən bəri sülh, əmin-amanlıq və sabitliyin tərəfdarı olduğunu vurğuladı. Ulu Öndər Azərbaycan xalqının sülhsevərliyinin və dostluğa, qardaşlığa olan dərin bağlılığının Atatürk Sülh Mükafatı ilə qiymətləndirilməsini həm özünün, həm də ölkəsinin ən böyük nailiyyətlərindən biri hesab etdiyini bildirdi. Onun nitqi respublikamızın beynəlxalq arenada sülh, təhlükəsizlik və inkişaf uğrunda mübarizə aparan ölkə kimi mövqeyini gücləndirdi.

Prezident Heydər Əliyev mərasimdəki nitqində Türkiyə ilə Azərbaycan arasındakı tarixi dostluğun dərin köklərə malik olduğunu qeyd etdi və bu əlaqələrin daim inkişaf edəcəyini vurğuladı. O, "bir millət, iki dövlət" ifadəsini önə çəkərək bildirdi ki, Azərbaycan və Türkiyə arasında həmrəyliyə, qardaşlığa əsaslanan əlaqələr gələcək nəsillər üçün bir irs olaraq qalacaq. Dövlət başçısının səmimi çıxışı iki dövlətin birgə inkişaf yolu üçün möhkəm zəmin yaratdı. Bu çıxış Azərbaycan-Türkiyə münasibətlərində dərin qardaşlıq bağlarının və ortaq məqsədlərin nə qədər böyük əhəmiyyət daşıdığını bir daha təsdiqlədi.

Dahi şəxsiyyət Heydər Əliyevin nitqi onun dövlətimizin milli maraqlarını beynəlxalq səviyyədə necə müdafiə etdiyini bir daha göstərdi. Bu nitq xalqımıza sülh, əmin-amanlıq və tərəqqi yolunda inam və güvən hissi aşılayırdı. Ulu Öndər xalqına və gələcək nəsillərə, həmçinin beynəlxalq ictimaiyyətə Azərbaycanın sülh tərəfdarı mövqeyini açıq şəkildə ifadə etdi və respublikamızın müasir dünyada sülhsevər bir ölkə kimi layiqli yer tutmasının vacibliyini vurğulayaraq gələcək nəsillər üçün də mühüm miras qoymuş oldu.

Prezident Heydər Əliyevin Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi iki dost və qardaş xalqın qəlbində əbədi iz buraxan bir xatirə, Azərbaycan və Türkiyə üçün dərin qardaşlıq bağlarının sarsılmaz təməllərini möhkəmləndirən bir hadisə olaraq yadda qaldı. Bu, yalnız dövlət başçısı Heydər Əliyevin dünya qarşısında sülhsevər mövqeyini təsdiqləmədi, eyni zamanda onun ölkəsinə və xalqına olan sonsuz sevgisinin də təcəssümü idi. Ulu öndər Heydər Əliyev Atatürk irsinə, həmçinin sülh və qardaşlıq ideallarına olan bağlılığı ilə Azərbaycanın beynəlxalq arenada layiqli yer tutmasına çalışdı və bu yolda əvəzsiz töhfələr verdi.

Ulu Öndər bu çıxışı ilə Azərbaycan-Türkiyə qardaşlığına, iki xalqın ortaq dəyərlərə sadiqliyinə möhkəm bir körpü qoydu. Bu mükafat gələcək nəsillərə sülh, dostluq və birlik ruhunda addımlamaq inamını verir. Azərbaycan xalqı üçün Ulu Öndər Heydər Əliyev yalnız böyük bir lider deyil, həm də millətinə daim istiqamət verən, sülh və tərəqqi arzularını ürəklərimizdə yaşadan ibrətamiz örnəkdir. Onun mirası, sülh və qardaşlıq idealı üzərində qurulmuş bu dəyərlər gələcək nəsillərin ilham mənbəyi olacaqdır.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**

Respublika 2024.- 1 noyabr (№ 241).- S.8.